**Beynəlxalq Teatr İnstitutu (ITI)**

**Ümumdünya Səhnə Sənətləri Təşkilatı**

**Dünya Teatr Günü Mesajı – 27 mart 2021**

Mesajın müəllifi: Helen MİRREN,

Teatr, kino və televiziya aktrisası, Birləşmiş Krallıq.

Səhnədə canlı çıxışlarla bağlı çox çətin bir dövr yaşadıq və aktyorlar, texniki işçilər, müxtəlif səhnə sənətçiləri, qadınlar onsuz da etibarsızlıqla dolu olan bu peşədə əziyyət çəkdilər.

Bəlkə də həmişə mövcud olan etibarsızlıq onların pandemiyanın öhdəsindən müdriklik və mətanətlə gəlməsinə kömək oldu.

Bu yeni şəraitdə onların təxəyülləri ünsiyyətin yenilikçi, əyləncəli və hərəkətli yollarını tapdı. Əlbəttə ki, İnternetin də burada payı böyükdür.

İnsanlar ta qədimdən bir-birlərinə hekayələr danışıblar. Nə qədər ki, Yer üzündə biz varıq, gözəl teatr sənəti də yaşayacaq.

Yazıçıların, dizaynerlərin, rəqqasələrin, müğənnilərin, aktyorların, musiqiçilərin, rejissorların yaradıcılıq eşqi heç vaxt boğulmayacaq və yaxın gələcəkdə yeni bir enerji və hamımızın paylaşdığı dünyaya yeni baxışla yenidən çiçəklənəcək.

Səbirsizliklə gözləyirəm!

*Tərcümə: Arzu Soltan*